**PƏRVANƏ QULİYEVA**
**Gəncə Dövlət Universiteti**
**Heydər Əliyev küç**
**gunay-ismayilovagdu@rambler.ru**

# İ.ƏFƏNDİYEVİN DRAMLARINDA LİRİK QƏHRƏMAN PROBLEMİ

Xalqın tarixən qarşılaşdığı taleyüklü hadisələrdə ən mühüm siyasi və mənəvi dəyərlərin, qalibiyyət və faciənin böyük vətəndaşlıq yanğısı ilə bədii təhlilini İlyas Əfəndiyevin müraciət etdiyi ədəbi janrların hər birində görmək olar. Epik və dramatik növlərin daxili poetik gücünü eyni ustalıqla üzə çıxaran yazıçı oxucunu tarixi dinləməyə, xatırlamağa və düşünməyə vadar edir. Onun "Geriyə baxma, qoca", "Üçatılan", "Natəvan", "Hökmdar və qızı" kimi əsərləri yazıçının tarixi mövzunu işləməkdə əsas bədii-estetik məqsədini bəyan edir: xalq öz tarixi dəyərləri ilə güclü və yenilməzdir. Bu mənada İlyas Əfəndiyevin yaradıcılığı yeni dövr Azərbaycan tarixinin bədii salnaməsidir.Yaradıcılığı boyu hakim ideologiyanı tərənnüm etməyən ədib o dövrdə ədəbiyyatda yasaq olan Cənubi Azərbaycan və mühacirət mövzularında əsərlər yazmışdır. Sənətkarın yaradıcılığında Qarabağ mövzusu da əsas yer tutmuşdur. O, namərd qonşularımızın ötən əsrin 90-cı illərindən başlayan xəyanətkarlıqlarını, işğalçılıq hərəkətlərini dərin narahatlıq, vətəndaş yanğısı ilə izləmiş, əsərlərində Qarabağın qədim tarixini əks etdirmişdir.Həyat hadisələrini bütün incəliklərinə qədər tərənnüm edən, onları dərin bədii təhlil süzgəcindən keçirib ümumiləşdirən, səlis, təbii dillə oxuculara çatdıran İlyas Əfəndiyev həm də şairanə ruha, poetik ifadə tərzinə malik sənətkardır. Onun yazıçı dili və bədii üslubu ədəbiyyatımızda yeni bir ədəbi məktəb səviyyəsinə yüksəlmişdir.

**Açar sözləri:** yaradıcılıq, dramaturgiya, lirik qəhrəman, müasirlik, əsər, müəllif, ədəbiyyat

İlyas Əfəndiyev Azərbaycan ədəbiyyatını öz dəyərli əsərləri ilə zənginləşdirmiş sənətkarlarımızdandır. Onun əsərlərində müəllifin tərcümeyi-halı, bioqrafiyası yox, bəlkə daha çox daxili "mən"i, mənəvi aləmi, xarakteri açılır; portreti yox şəxsiyyəti görünür.

Əlbəttə, İlyas Əfəndiyevin heç bir əsərində ayrıca bir İlyas Əfəndiyev yoxdur. Lakin İlyas Əfəndiyevdən bir duz, bir iz onun hər əsərində, hər obrazında var.

İlyas Əfəndiyev həmişə irəlini görmək üçün geriyə baxmağın tərəfdarı olub, gələcəklə keçmiş arasındakı körpünün üzərində dayanaraq, həyata və insanlara buradan boylanıb baxıb. Kökə, əcdada boylanmayanda isə nə şəxsiyyət nə də xalq irəlini görə bilməz. Onun bütünlükdə bədii yaradıcılığının məntiqi ilə ifadə olunan qanunauyğunluq bir də bu həqiqətdən ibarətdir.

Müasir həyatı ardıcıl tədqiq edən, diqqətlə öyrənən və məharətlə canlandıran İlyas Əfəndiyevin tarixi keçmişə müraciəti də zərurət nəticəsi olub, onun nasirlik və dramaturqluq təcrübəsində yeni nailiyyətlərini müəyyənləşdirir, fıkri-mənəvi təkamülünü bütövlükdə izləyib aydınlaşdırmağa geniş imkan yaradır. Müasirlik ruhunun belə əsərlərdə də güclü çıxmasına səbəb müəllifin xalq həyatı və mənəviyyatı ilə bağlı problemləri, aktual məsələləri həssas duyğu ilə yeni təfəkkür işığında mənalandırmağı bacarmasıdır.

İ.Əfəndiyevin romanları lirik qəhrəman problemi psixoloji məqamların bolluğu ilə seçilir. Yazıçı bu ənənəni o zaman böyük təlatümlərə, mübahisələrə səbəb olan "Körpüsalanlar" romanında da davam etdirir. Bu əsərdə ədib maraqlı, ədəbiyyat üçün yeni olan surətlər yaradır.

İlyas Əfəndiyevin əsərlərində məhəbbət mühüm yer tutur, şəxsiyyətin mənəvi aləmini əxlaqi qənaətlərini sınağa çəkən güclü təbii amillərdən biri kimi tədqiq olunur. Ədibin ilk hekayələrində olduğu kimi tədqiq olunur. Ədibin ilk hekayələrində olduğu kimi, ona həqiqi sənətkar şöhrəti gətirmiş nəsr və dram əsərlərində də bu hiss dərin, güclü və aparıcıdır.

İ.Əfəndiyev qələminin ən uğurlu nümunələrindən olan “Unuda bilmirəm” əsərində konflikt əsasən surətlərin daxili aləmi ilə əlaqədardır. Onların hər birinin həlli zəruri problemlər, arzularına çatmağa əngəl törədən müəyyən maneələr vardır.

Dramın başlıca konfliktini ümumi şəkildə aşağıdakı kimi müəyyənləşdirə bilərik, insanın şəxsi arzuları ilə ictimai borcu arasında meydana çıxan uyğunsuzluğun doğurduğu ziddiyyət. Bu inkar edilməz bir faktdır ki, şəxsiyyət özünü cəmiyyətin bərabər hüquqlu üzvlərindən biri kimi aparanda, şəxsi arzularını ictimai mənafeyə qarşı qoyub, vətəndaşlıq borcuna laqeydlik göstərmədikdə şəxsiyyətlə cəmiyyət arasında tam bir ahəngdarlıq yaranır.

Professor Möhsünzadə üçün elm milli şüurun formalaşması, xalqın təfəkkür yüksəlişidir. Elmin əsas məqsədi isə insanların səadətinə, daha xoşbəxt gələcəyinə xidmət olmalıdır. Möhsünzadənin arvadı Səadət xanım elmi ailə səadətinin başlanğıcı sayır.

Kamranın ictimai əqidəsi “ elm insanın xoşbəxtliyinə xidmət etməlidir ” sözlərində öz ifadəsini tapır. Əqidə saflığına Kamran özünün harada xalq üçün daha lazımlı olduğunu çox yaxşı başa düşür və doğma yurdu Borçalıya təyinat alır. Onun ehtirasları və arzuları bəzən “Yüyənsiz at kimi” baş alıb getsə də, əməlləri konkret və faydalıdır.

Sürücü Kərimin fikrincə, elm aləminə xeyirxah, insanpərvər, sadə qəlbli, torpağına, xalqına bağlı adamlar gəlməlidirlər.

Nərmin elmə hünər, qəhrəmanlıq meydanı kimi baxır, ancaq bu xüsusiyyətlərin zahiri tərəfini gördüyü, daxili psixoloji dərinliyi görə bilmədiyi üçün səhv edir.

Mürəkkəb həyat hadisələri göstərir ki, Cəmili Nərminə bağlayan dərin məhəbbət telləri deyil, Cəmil məharətlə pərdələnmiş meşşan, elmə gəlir mənbəyi kimi baxan karyeristdir. Bu maska yırtılanda Nərmin hər şeyi dərk edir, Cəmildən ayrılır.

Möhsünzadənin ictimai mövqeyi onu kamil şəxsiyyət, müdrik insan səviyyəsinə qaldırır. Pyesdə o, oxucuya vətən qeyrəti çəkən vətəndaş kimi təqdim olunur. Pyesdə o, oxucuya vətən qeyrəti çəkən vətəndaş kimi təqdim olunur.

Roman iki əsas surətin - Səriyyə və Adilin üzərində qurulmuşdur. Hadisələrin mərkəzində bu iki surət dayanır.Müasir Azərbaycan romanının inkişafında mühüm xidməti olan İ.Əfəndiyev yeni romanında əvvəlki qadın obrazlarından tamamilə fərqlənən, həyata, insanlara münasibəti nöqteyi-nəzərindən onlara oxşamayan Səriyyə kimi bir surət yaratmışdır.

Roman çap olunduğu illərdə geniş müzakirəyə səbəb olmuşdur. Bunun əsas "günahkarı" Səriyyə idi. Onun bəzi hərəkətləri oxucuları razı salmırdı. Səriyyənin ərinə münasibəti, başqa adamlarla ayı ovuna getməsi, şərab içməsi, Qəriblə yaxınlığı, mənfi hal kimi qiymətləndirilmişdir.

Hekayəti Səriyyə başlayır. Əvvəldə o, evli olduğunu, yoldaşının yollar idarəsində mühəndis işlədiyini bildirir. Onun yoldaşı hamı tərəfindən hörmət qoyulan, ağıllı, işinə ciddi yanaşan, ailəsini ürəkdən sevib, onlara bağlı yaşayan insandır.

“Unuda bilmirəm” pyesində əsas məzmun Kamran və Nərmin xəttidir. Professor Möhsünzadənin ailəsi nəzəri diqqəti cəlb edir. Kamran sözün həqiqi mənasında yüksək vətəndaşlıq və humanist qeyrətə malik olan hüquq işçisidir. O, əsərdə baş verən keçmiş əhvalatları tamamilə unudur, öz keçmiş tələbə yoldaşı Cəmilin qəza törətdiyini bilir və onu cəzalandırmır. Bunu Kamran ona görə etmişdir ki, o intiqam hissi ilə yaşayan şəxsiyyət deyildir. O, professor Möhsünzadənin ailəsinə özünün əvvəlki münasibətini saxlayır və ona görə də Cəmilin qəza işini onun insani hissləri Cəmilə bağışlatmışdır. Əsərdə təsvir olunan Cəmil obrazı dövrünün zəmanəsinin yaltağı, ikiüzlüsü, tez – tez öz rəngini dəyişən buqələmunlərə bənzəyir. Beləliklə əsər təkcə İ.Əfəndiyev yaradıcılığı üçün deyil, Azərbaycan dramaturgiyası üçün tapıntı hesab oluna bilər.

"Sarıköynəklə Valehin nağılı" kəskin tənqidi, ifşaedici qüvvəyə malikdir. Müəllif burada satirik boyalarını lirik-romantik mündəricə ilə paralel inkişaf etdirir, həm həyatın mənfi halları ilə mübarizənin qurtarmadığını, həm də Məcidovların parıltılı xarici görünüşləri altında iyrənc

daxili aləmin, yırtıcı psixologiyanın gizləndiyinə güclü inam hissi oyadır. Düzdür, "Valehlə Sarıköynəyin nağılı" nöqsansız da deyildir. Valehlə Rəcəbin gülüşmə səhnəsi bizə heç nə demir. Güllübəyim hadisələr axınında itir, bir surət kimi natamam qalır. Bununla belə, problemin aktuallığı, yazıçınm cəsarəti, onun üslubunun təzəlik və orijinallığı ciddi maraq doğurur, bütövlükdə əsər oxucunu fəallaşdırır, onun dünya görüşünə dərin təsir göstərir.

İlyas Əfəndiyev yenə də öz yaradıcılıq xüsusiyyətlərinə sadiq qalaraq, təbii insan psixologiyasını və sadə boyalarla göstərdiyi üçün «Atayevlər ailəsi» pyesi də bizim realist dramaturgiyamızm sevindirici nailiyyətlərindən biridir. Əsərdə verilmiş müsbət surətlər əsl mənada xalq nümayəndələridir. Onların mədəni səviyyəcə, zəka və düşüncə e'tibarilə mənfı surətlərdən nə qədər yüksək olduqlarını isbat etməyə ehtiyac yoxdur. Əsas hadisə və personajlar Atayevlər ailəsi ilə bağlıdır. Bu ailə müxtəlif münasibət və ziddiyyətləri, təşəbbüs və görüşləri aşkara çıxaran, biri digərinə əks qüvvə və xarakterləri üz - üzə gətirən meydan, süjet inkişafına təkan və istiqamət verən mərkəz mövqeyindədir. Əsərdə ayrı - ayrı şəxslər xalqın etimadından sui - istifadəyə yol verib, vəzifə hüquqlarından, dövlət vəsaitindən şəxsi mənfəət naminə istifadə edir, varlanmaq, istədikləri kimi yaşamaq ehtirası ilə qanuni cəmiyyətin əxlaqi tələblərini gözləmirlər.

Bu əsərdən sonra ədib onillik fasilə edir. Ancaq bu onun yaradıcılığına süqut və böhran deyildi. Müasirlik axtarışlarını bu müddətdə. demək olar, bədii nəsr sahəsinə yönəldir, ədəbiyyatımız bir çox hekayə, oçerk və romanla zənginləşir. Müəllif müsbət qəhrəmanın mübarizəsindəki yeniliyi, gözəlliyi və çətinliyi dərindən hiss edir, şairanə ilhamla, həqiqi sənətkarlıqla göstərməyi çox mühüm yaradıcılıq məsələsi hesab edirdi. Müsbət qəhrəmandan söz açanda İlyas Əfəndiyev bir həqiqəti də unutmur. Bu həqiqət müsbət qəhrəmanın yalnız xarici amillərlə deyil, eyni zamanda, öz dixilindəki, mə'nəviyyatındakı ziddiyyətlərlə mübarizədə yüksəlməsi idi.

İlyas Əfəndiyev müsbət qəhrəmanı əsərin ləyaqəti, müsbət müəllif idealı kimi qiymətləndirirdi. Onun əsas müsbət qəhrəmanları işıqlı fikirlər, saf duyğular, nəcib əməl və ideallar daşıyıcıları kimi mübarizə meydanma girəndə heç bir maneə və çətinlik onları yolundan döndərə bilmir. İlyas Əfəndiyev bu təşəbbüskar, möhkəm iradəli və mərd təbiətli adamların xarakterini dram əsərlərində əks etdirmişdir.

Ümumiyyətlə, onun əsərlərində sanki epik möhtəşəmliyi, epik genişlik və dərinliyi sevən bir yazıçı ilə ideyanı, estetik qayəni, romanın, ya pyesin məzmununu incə lirizmlə açmaq istəyən qüdrətli bir şair yarışır. Belə bir yarışda isə nasir şairi, şair də nasiri tamamlayır.

Əsərlərinin bədii-fəlsəfi tutumu, yüksək mənəvi-əxlaqi dəyərlərə malik qəhrəmanları ilə adını yaddaşlara yazdıran görkəmli yazıçı-dramaturq İlyas Əfəndiyevin (1914-1996) Azərbaycanın ədəbi və mədəni mühitində özünəməxsus yeri və çəkisi var. Onun qələmindən çıxan nəsr və dram əsərləri böyük oxucu sevgisi qazanmış, müəllifinə böyük şöhrət gətirmişdir. Oxucunu düşündürmək, onun hislərinə hakim kəsilmək, gözəlliklər aləminə dəvət etmək, həqiqət və ədalət üçün savaşa ruhlandırmaq kimi yüksək keyfiyyətlərə malik olan İlyas Əfəndiyev yaradıcılığı XX əsr Azərbaycanını əks etdirən çox qiymətli xəzinədir.

Ədəbiyyatımıza lirik-psixoloji üslubu gətirən, ilk hekayələrindən başlayaraq mənəvi axtarış soraqlı böyük ədibin qəhrəmanları öz səmimiliyi ilə seçilir. "Necə varsa, elə də görünən", özünün yaradıcılıq manerası ilə ədəbiyyatımızın unudulmazlarından birinə çevrilən müəllifin zəngin nəsri "Söyüdlü arx", "Körpüsalanlar", "Dağlar arxasında üç dost", "Sarıköynəklə Valehin nağılı", "Üçatılan", "Geriyə baxma, qoca" romanlarını, "Kənddən məktublar", "Aydınlıq gecələr", "Torpağın sahibi", "Qaçaq Süleymanın ölümü", "Xan qızı Gülsənubərlə tarzən Sadıqcanın nağılı" povestləri və bir-birindən maraqlı, ibrət dolu hekayələri əhatə edir. Xalq yazıçısının gəncliyimizdə əlimizdən qoymadığımız "Körpüsalanlar", "Söyüdlü arx" və başqa əsərlərini oxuyanda aldığımız mənəvi güclə tez böyümək, həkim, müəllim,

mühəndis olmaq, arzularımızın ardınca Azərbaycanın ucqar kəndlərində çalışmaq istəyi ilə tutuşub yanırdıq. Çünki onun qələmə aldıqları o qədər təbii, o qədər inandırıcı və o qədər səmimi, real və real olduğu qədər də romantik idi ki... Onun oxucunu məftun edən “Söyüdlü arx”ından “XX əsr Azərbaycan lirik nəsri su içdi”, qəlblərə sevgi, məhəbbət, səmimilik körpüsü saldı. Masa arxasında üç dostun - qələm, kağız, bir də sənətkarın düşüncəsindən yaranan “Dağlar arxasında üç dost”u isə dağlar qədər ucalaraq mənsub olduğu xalqın kökü əsrlərin dərinliklərindən gələn ədəbiyyatının zirvəsinə qalxdı.

İlyas Əfəndiyevin kiçik hekayələrindən tarixi dramlarına qədər bütün yaradıcılıq örnəkləri insanı düşünməyə, həyatdakı gözəllikləri görməyə, onlardan zövq almağa sövq etdiyi kimi, gənclərə də uğurlu gələcək naminə düzgün yol göstərir. Böyük yazıçının dramaturgiyaya gedən yolu da kiçik hekayələrdən başlayıb. Əsasən 1940-cı illərdə yazılan bu hekayələri gənc yazıçının qəlbinin ilk duyğu və düşüncələri adlandırmaq olar. Hekayələrin yazılmasından yarım əsrdən çox vaxt keçməsinə baxmayaraq, bu gün də sevilə-sevilə oxunur, insanları hisləri ilə baş-başa qoyur.

İlyas Əfəndiyev yaradıcılığında zəngin şifahi xalq ədəbiyyatımızdan da geniş şəkildə bəhrələnib. Yazıçının “qəm notları üstündə köklənən” “Apardı sellər Saranı” hekayəsinin mövzusu maraqlı bir əfsanədən götürülüb. Əsərdə müəllifin aşıladığı qənaət bundan ibarətdir: “Namussuz yaşamaqdansa, ölmək gözəldir”. Çünki namussuz yaşamaqdansa, ölümü ilə yüksələnlər əbədiyaşarlıq qazanırlar (dahi Hüseyn Cavidin “Ölmək, yaşamaqdır! Sərsəm yaşamaq ömrə yamaqdır” düşüncəsi kimi).

“Aydınlıq gecələr” hekayəsində yazıçının kiçik süjet xəttinə malik hadisələri alman mütəfəkkir dramaturqu İ.V.Hötenin “bir az daha işiq” fəlsəfəsi ilə izah etməsi onun hələ gənclik illərindən bədii əsərlərində dərin fəlsəfi düşüncələrə geniş yer verdiyini göstərir. Bu hekayələrdə real hadisə və düşüncələr yazıçının romantik baxış və duyğularının süzgəcindən keçirilərək təqdim olunur. Onun lirik-romantik süjet xəttinə malik olan “Qəhrəman ilə bülbülün nağılı” hekayəsi kimi. Yazıçı şifahi xalq ədəbiyyatının gözəl nümunələrindən olan “Bülbül və qızılquşun nağılı” əfsanəsinə yeni bir ahəng gətirib, maraqlı bədii don biçib. Əsər oxucuya öz yurdu üçün qanını və canını əsirgəməyən vətən övladlarının bu ali missiyalarından örnək almağı təlqin edir.

İlyas Əfəndiyevin lirik, ürəyəyatan üslubunu, psixoloji incəliklərə dərindən nüfuz etmək qabiliyyətini onun dram əsərlərində də müşahidə edirik. 1948-ci ildə yazdığı “Bahar suları” pyesi ilə İlyas Əfəndiyev Hüseyn Cavidsiz, Cəfər Cabbarlısız “yetim qalmış” dramaturgiyamıza yeni nəfəs, yeni ab-hava gətirir.Sözügedən dövrdə repressiyalar bir qədər səngisə də, tam bitməmişdi. Hələ Stalin yaşayırdı, ədəbiyyatımızda “ehtiyat igidin yaraşığıdır” - fəlsəfəsi ilə hərəkət edənlər, onu (Stalini) öyənlərin, mədh edənlərin işğalı isə davam edirdi. Hələ də xalq qorxu və səksəkə içində yaşayır, pıçıltı ilə danışırdı. Belə bir qorxunc zamanda qələmdaşlarından fərqli olaraq İlyas Əfəndiyevin “Bahar suları” pyesini qələmə alması böyük cəsarət idi. Eyni zamanda repressiyanın davam etdiyi bir dövrdə “Erkək Tükəzbanlar”ın əksinə olaraq yaratdığı müsbət qadın obrazları Sədəf və Turacın lirik-psixoloji duyğularının təsviri də ədəbiyyatda yenilik idi. O, sovet ideologiyasının hökmran olduğu “qadağalar dövrü”ndə belə böyük cəsarətlə bir çox mövzuları “Hacı Axundun cənnət bağı necə oldu” hekayəsində, “Xan qızı Gülsənubərlə tarzən Sadıqcanın nağılı” povestində, “Dəlilər və ağıllılar”, “Tənha iydə ağacı” pyeslərində ədəbi gündəmə gətirmişdi.Dramaturgiyada bir-birinin ardınca uğurlara imza atan, insan psixologiyasına yaxından bələd olan ədibin “Mənim günahım”, “Unuda bilmirəm”, “Məhv olmuş gündəliklər” kimi lirik-psixoloji məzmunlu pyesləri də XX əsr ədəbiyyatımızın qiymətli nümunələrindəndir. “Unuda bilmirəm”də Nərminin söylədiyi mahnı uzun illər dilimizin əzbərinə çevrildi, yaddaşımıza yazıldı.

İlyas Əfəndiyev “Xurşidbanu Natəvan”, “Şeyx Xiyabani” kimi tarixi məzmunlu dram əsərlərində gənc nəslə öz soykökünə, mədəniyyətinə sevgi hissi aşılayır. “Şeyx Xiyabani”də

müəllif bütöv Azərbaycan dərdini diqqət mərkəzinə çəkir. Ədib bir əsərində həllini qoyduğu problemi digər dram əsərində məharətlə şərh edirdi ki, əslində Şeyx Məhəmməd Xiyabani mübarizliyi və vətənpərvərliyi ilə dramaturqun özü idi.

Yazıldığı gündən ədəbi hadisəyə çevrilən "Xurşidbanu Natəvan" dramının qəhrəmanı sələflərinə əqidə və mübarizliyi ilə sadiq qaldığını, Azərbaycan qadınının xalqının taleyi və birliyi üçün hər cür fədakarlığa qabil olduğunu sübut edir. Ədib Xan qızı Natəvanı nə qədər sevgi ilə yaradırsa, mənfur ermənini (Ter-Vahan) bir o qədər nifrətlə təsvir edir, hər bir türkün daim ayıq-sayıq olmasını, vətənin hər qarış torpağının qədrini bilib qorumaq, gələcək nəsillərə şəriksiz verməyi tapşırır. Bu tapşırıq isə müəllifin Vətən və millət qarşısında daşıdığı məsuliyyət hissindən doğurdu. İlyas Əfəndiyevin Vətəninə, onun hər bir övladına sevgisi əsl vətəndaş örnəyidir.

Yazıçı-dramaturq ideya-sənətkarlıq baxımından bir-birindən qiymətli əsərləri ilə Azərbaycan teatrında da yeni mərhələ açmış, sənət salnaməmizə ayrıca olaraq "İlyas Əfəndiyev teatrı" anlayışı daxil olmuşdur. Teatrla uzunmüddətli yaradıcılıq əlaqəsi olmuş sənətkarın, demək olar ki, bütün pyesləri Azərbaycan Dövlət Akademik Milli Dram Teatrında tamaşaya qoyulmuşdur. Geniş mənada XX əsrin ikinci yarısından etibarən Azərbaycan teatr poetikası bədii-estetik dəyərini "İlyas Əfəndiyev teatrı"nda tapmışdır.

Böyük sənətkar XX əsr ədəbiyyatımızın klassiki, milli nəsr və dramaturgiyamızın, teatr sənətimizin, ədəbi-tənqidi, ictimai fikrimizin inkişafında mühüm xidmətlər göstərmişdir. O, "Mahnı dağlarda qaldı", "Xurşidbanu Natəvan", "Şeyx Məhəmməd Xiyabani", "Hökmdar və qızı" və digər tarixi dramları ilə xalqımızın azadlığı və müstəqilliyi uğrunda apardığı mübarizənin, istiqlal məfkurəsinin, azadlıq hərəkatının, milli birliyin bədii tərənnümçüsünə çevrilmişdir. Haqlı olaraq İlyas Əfəndiyevin yaradıcılığını "yeni dövr Azərbaycan tarixinin bədii salnaməsi" də hesab edirlər. Fikrimizcə, bu salnamə bütün zamanlar üçün aktualdır və gələcək nəsillər də bu zəngin qaynaqdan bəhrələnməlidir.

Sənətin, müdrikliyin zirvəsinə yüksəlmiş görkəmli yazıçı-dramaturq İlyas Əfəndiyev 1996-cı ilin 3 oktyabr tarixindən, yəni 21 ildir bir daha "geriyə baxmasa" da, qiymətli əsərlərinin "diktəsi" ilə oxucuları və tamaşaçıları daim ötənlərə nəzər yetirəcək, sevimli müəlliflərini hörmətlə anacaqlar.

## İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT SİYAHISI

1. A.Hacıyev "Yazıçı şəxsiyyəti və bədii qanunauyğunluğu" Bakı "Yazıçı", 1986
2. A.İsmayıloğlu "Əbədiyyətə aparan yol" Bakı, 1996
3. A.Salahova, H.Qırbanov "İlyas Əfəndiyev yaradıcılığının poetikası" Bakı "Yazıçı", 1984
4. İ.Qəhrəman, R.Vəliyev "Yaddaşın'boy çiçəyi " Bakı "Qərənfil", 2006
5.M.Arif. Əsərləri (üç cilddə). I cild, EA nəşriyyatı, Bakı, 1967
6.Q.Xəlilov. Azərbaycan romanının inkişaf tarixindən. Bakı, 1973.
7. B.Nəbiyev. Təzə izlər sorağında. Bakı, 1979
8. M.Cəlal "İlyas" Bakı "Gənclik", 1942

E.Guliyeva

The problem of the lyrical hero in the i. efendiyev's dramas

Summary:

A fictional analysis of the most important political and moral values, wars and tragedies in the fateful history of the people can be seen in each of the literary genres addressed by Ilyas Afandiyev. The writer, who simultaneously identifies the inner poetic power of epic and

dramatic species, encourages the reader to listen to history, remember and think. His works such as "Don't looking back, old," "Triathlon", "Natavan", "Ruler and Daughter" are the main artistic-aesthetic purpose of the writer's historical work: the people are strong and invincible with their historical values. In this sense, Ilyas Afandiyev's creative activity got a new era of art history of Azerbaijan.

The writer who did not praise the dominant ideology during his creative career, wrote works in South Azerbaijan and immigration issues in literature.

The subject of the Karabakh issue is also important in the art of the artist. He reflected the treachery of our neighbors, which began in the 90s of the last century, with deep concern and apprehension of the aggression, the ancient history of Karabakh.

Ilyas Afandiyev is a poet, a poetically expressing figure, who sings all the details of life into all its subtleties, and passes them to a deep analysis of the fiction, to the readers in fuzzy and natural language. His writer's language and art style have risen to a new literary school in our literature.

Key words: creativity, drama, lyric hero, modernity, work, author, literature

Е.Кулиева

Проблема лирического героя в драмах и.эфендиева

Резюме:

В каждом литературном жанре Ильяса Эфендиева можно увидеть анализ важнейших политических и моральных ценностей, войн и трагедий в роковой истории народа. Автор, который одновременно определяет внутреннюю поэтическую силу эпических и драматических видов, призывает читателя слушать историю, помнить и думать. Его произведения «Не смотри назад, старик», «Триатлон», «Натаван», «Правитель и дочь» являются главной художественно-эстетической целью исторического произведения писателя: люди сильны и непобедимы со своими историческими ценностями. В этом смысле творчество Ильяса Эфендиева - новая эра в истории искусства Азербайджана.

Писатель, который не хвалил доминирующую идеологию во время своей творческой карьеры, писал произведения о Южном Азербайджане и вопросы иммиграции в литературе и впервые привел тему иммиграции в литературу.Тема Карабахского вопроса также важна в творчестве художника. Он отразил предательство наших соседей, которое началось в 90-х годах прошлого века, с глубокой озабоченностью и опасениями агрессии, древней истории Карабаха.Ильяс Эфендиев - поэт, поэтически выраженная фигура, которая показывает все детали жизни во всех ее тонкостях и передает их глубокому анализу художественной литературы читателям на четком и естественном языке. Язык и художественный стиль писателя выросли до новой литературной школы в нашей литературе.

**Ключевые слова:** творчество, драматургия, лирический герой, современность, творчество, автор, литература

Redaksiyaya daxil olma tarixi: 21.05.2019
Çapa qəbul olunma tarixi: 5.08.2019
Filologiya üzrə fəlsəfə doktoru,dosent Afaq Yusifli tərəfindən çapa tövsiyə olunmuşdur.